**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ƏHSƏN ALLAHVERDİ oğlu ƏHMƏDOV**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA XANƏNDƏLİK SƏNƏTİNİN İNKİŞAFI (1960-2010-CU ILLƏR)

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Şəhla Həsən qızı Həsənova**
Azərbaycan Respublikasının
Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Leyla Ramiz qızı Zöhrabova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Gəncə Dövlət Universiteti**
**"Musiqi fənnləri" kafedrası**

Müdafiə ___ sentyabr 2017-ci ildə saat 14:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ avqust 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qədim tarixə malik Azərbaycan muğamının XXI əsrin əvvəllərində YUNESKO tərəfindən bəşəriyyətin ən möhtəşəm sənət abidələri siyahısına daxil edilməsi, müasir dövrdə ölkəmizdə dövlət səviyyəsində muğam sənətinə göstərilən diqqət və qayğı, dünya miqyaslı layihələrin həyata keçirilməsi muğam sənətinin yüksəliş dövrünün başlanğıcına və Azərbaycanın Şərq xalqlarının muğam-makam mədəniyyətinin mərkəzinə çevrilməsinə təkan verdi.

Müasir dövrdə xanəndəlik sənətinin inkişafından danışarkən, ilk növbədə, Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin bütövlükdə mədəniyyətə münasibətini, musiqini dəyərləndirməsini, incəsənət xadimlərinə himayədar mövqeyini qeyd etməliyik. Məhz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə, XX əsrin 60-ci illərindən sonra muğam ifaçılığı sənəti bilavasitə Ulu Öndərin himayəsi və dövlətin qayğısı altında inkişaf etmişdir. XXI əsrin əvvəllərindən isə Heydər Əliyev Fondunun fəaliyyəti birbaşa Azərbaycan muğamının qorunmasının, yaşadılmasının və gələcək nəsillərə ötürülməsinin təmin edilməsinə yönəldilmişdir. Bu istiqamətdə görülən bütün işlər bilavasitə xanəndələrin və xalq çalğı alətləri ifaçılarının milli musiqi mədəniyyətinin inkişafındakı rolunu artırmaqla, Azərbaycan muğam sənətinin dünya məkanında təbliğini və yayılmasını reallaşdırmışdır.

Azərbaycan muğam ifaçılığı sənətinin öyrənilməsi musiqişünaslığın aktual mövzularından olub, həm Azərbaycan, həm də xarici ölkə musiqişünaslarının diqqət mərkəzində durur. Muğam sənəti Yaxın və Orta Şərq xalqlarının musiqi mədəniyyətində geniş yayılan unikal yaradıcılıq sahəsidir. Muğam - son dərəcə güclü emosional təsir gücünə malik olan janr, eyni zamanda ifaçının ustalıq və məharətindən asılı olaraq həcm və formaca dəyişilən, qəzəlin metroritmik quruluşu, məzmunu və milli çalarlarını özündə əks etdirən orijinal sənətdir.

Muğamın bu günümüzə qədər əsrlərdən bəri süzülüb gəlməsi muğam biliciləri, musiqiçilər və xanəndələr tərəfindən həyata keçirilmişdir. Ayrı-ayrı dövrlərdə bu ağır yükü öz çiyinlərində daşıyan xanəndələr hər bir muğam şöbə və guşəsini yaddaşlarında hifz edərək, beyindən-beyinə köçürərək, nəsildən-nəsilə ötürmüş, müasir dövrümüzə yüksək klassik formada çatdırmışlar.

XX əsrdən başlayaraq, xüsusilə XX əsrin II yarısından və XXI əsrin əvvəllərində xanəndələrin fəaliyyət sahəsi çox genişlənmişdir. Xanəndələr

həm muğam ifaçısı – ansamblın solisti, həm operanın solisti, həm də müəllim kimi tanınırlar, muğam sənətinin və bəstəkar yaradıcılığının inkişafında mühüm rol oynayırlar. Müasir dövrdə bütövlükdə xanəndəlik sənətinin, həmçinin, ayrı-ayrı Azərbaycan xanəndələrinin yaradıcılığının öyrənilməsi musiqişünaslıqda həlli vacib məsələlərdən biri kimi diqqəti cəlb edir.

**Mövzunun işlənmə səviyyəsi**. Müasir dövrdə Azərbaycan musiqi mədəniyyətinin inkişafı baxımından tədqiqatların aparılmasında Ümummilli liderimiz Heydər Əliyev irsinin öyrənilməsi böyük əhəmiyyətə malikdir. Heydər Əliyevin zəngin irsində[1] musiqi mədəniyyətinə, muğam sənətinə, muğam ifaçılarına münasibəti diqqət mərkəzində olan məsələlər kimi qabarıq surətdə təzahür edir. Bununla yanaşı, muğam sənətinin inkişafına qayğı tarixi dövlət sənədlərində öz əksini tapır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti - Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin imzaladıqları fərmanlar, sərəncamlar mühüm əhəmiyyətə malikdir və tədqiqatın aparılmasında təkanverici nöqtəyə çevrilir.

Muğam sənətinin tədqiqi və muğam ifaçılarının səsyazıları irsinin qorunmasında Heydər Əliyev Fondunun fəaliyyəti önəmlidir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın muğam sənətinin təbliği və tədqiqi yolunda gördüyü işlər, müxtəlif kitabların, səsyazıları albomlarının və elektron nəşrlərin hazırlanması xüsusi qeyd olunmalıdır. Heydər Əliyev Fondu tərəfindən hazırlanan "Azərbaycan muğamı" tədris vəsaiti[2], "Qarabağ xanəndələri"[3], "Muğam ensiklopediyası"[4] kimi CD-

---

[1] Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti // "Dirçəliş" jurnalı, 2001, № 1-2; Dünya azərbaycanlılarının birinci qurultayında nitqi. "Azərbaycan" qəz., 10 noyabr 2001; Müstəqilliyimiz əbədidir B.: Azərnəşr, 2007; Təhsil millətin gələcəyidir /Tərtibçilər: Mərdanov M, Quliyev. Ə. B.: Təhsil, 2002; Heydər Əliyev mədəni irsimizin keşiyində. I və II kitab. B.: Azərbaycan Respublikası Prezidentinin katibliyi, 2001; Heydər Əliyev və azərbaycançılıq məfkurəsi (R.Mehdiyevin redaktəsi ilə). B.: Azərbaycan Universiteti 2002. 232 s.; Heydər Əliyev və mədəniyyət. 3 cilddə, B.: Nurlar, 2008.

[2] Azərbaycan muğamı. İnteraktiv audiovizual sistemlər. 8 diskdən ibarət: I.Tədris vəsaiti; II.Azərbaycan muğam dəstgahları; III.Azərbaycan muğam dəstgahları; IV.Kiçik həcmli muğamlar; V.Zərb muğamlar; VI.Muğam ustadları; VII.Muğam ustadları; VIII.Simfonik muğamlar. Heydər Əliyev fondunun nəşri. B.: Çaşıoğlu, 2009.

[3] "Qarabağ xanəndələri" 24 CD diskdən ibarət albom. Heydər Əliyev fondunun nəşri B.: 2005.

[4] "Muğam ensiklopediyası". Azərbaycan xanəndələri. Diskoqrafiya. 5 CD albom: I.Qarabağ xanəndələri; II.Muğam dəstgahları; III.Gənc xanəndələr; IV.Ustad xanəndələr-I (kişi xanəndələr); V.Ustad xanəndələr-II (qadın xanəndələr). // Heydər Əliyev Fondu (redaksiya

DVD albomlar və muğam sənəti ilə bağlı zəngin materialları əhatə edən nəşrlər kimi çox qiymətlidir və bütün bunlar müasir dövrdə muğam sənətinin tədqiqi üçün əsas mənbəyə çevrilmişdir.

Heydər Əliyev Fondu tərəfindən keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı və Elmi Simpoziumunun materiallarında[5] öz əksini tapan muğamın tədqiqi və ifaçılıq məsələləri önəmli əhəmiyyət daşıyır və dünya alimlərinin tədqiqatının əsas müzakirə mövzusuna çevrilir.

Müasir dövrdə muğamın tədqiqi müxtəlif aspektlərdən – tarixi, nəzəri, ifaçılıq, estetik, etnomusiqişünaslıq baxımından həyata keçirilir. Bu sahədə yüzlərlə sanballı tədqiqat işləri yazılır. Bizim tədqiqatın nəzəri bazasını Azərbaycan musiqişünaslarının əsərləri təşkil edir.

XX əsrdə Azərbaycan musiqişünaslığının yeni yüksək mərhələsini yaratmış dahi bəstəkar və alim Üzeyir Hacıbəylinin[6] və onun davamçıları olmuş Məmmədsaleh İsmayılovun[7], Əfrasiyab Bədəlbəylinin[8], Bülbülün[9] elmi yaradıcılığında muğam sənətinin tarixi inkişafı, janr xüsusiyyətləri, musiqi dilinin xüsusiyyətləri ilə bağlı elmi müddəalar öz əksini tapmışdır. Azərbaycan musiqisinin qaynaqlarını öyrənən musiqişünaslıq əsərlərində qədim və orta əsrlərdən başlayaraq, müasir dövrə kimi Azərbaycanın şifahi ənənəli musiqi mədəniyyətinin inkişaf yolları araşdırılmış və musiqi elminin tərəqqisi üçün önəmli müddəalar irəli sürülmüşdür. Tədqiqatlarda özünü göstərən vacib istiqamətlərdən biri muğam sənətində ifaçı amili ilə bağlıdır.

Tədqiqatımız üçün vacib olan aspektdə Elmira Abasovanın[10], Gülnaz Abdullazadənin[11], Fikrət Əmirovun[12], Vaqif Əbdülqasımovun[13], Fərəh

---

heyətinin sədri, baş redaktor M.Əliyeva). «Musiqi Dünyası». Heydər Əliyev fondunun nəşri. B.: Şərq-Qərb, 2008.

[5] «Muğam Aləmi» beynəlxalq elmi simpoziumunun materialları. B.: Şərq-Qərb, 2009, 2011, 2013, 2015-ci illərə aid nəşrlər.

[6] Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Yeni nəşr. B.: 2010; Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). B.: Adiloğlu, 2005.

[7] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. B.: İşıq, 1984; Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.: Elm, 1991.

[8] Bədəlbəyli Ə.B. İzahlı-monoqrafik musiqi lüğəti. B.: AZ.SSR EA, 1969.

[9] Bülbül. Seçilmiş məqalə və məruzələri B.: Azərb. EA, 1968.

[10] Абасова Э.А. Узеир Гаджибеков. Б.: Азернешр. 1974; Курбан Примов. М.: 1963; Тарист Бахрам Мансуров. М.: 1977.

[11] Abdullazadə G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti (tarixi fəlsəfi təhlil). B.: Qartal, 1996; Абдуллазаде Г.А. Философская сущность азербайджанских мугамов. Б.: Язычы, 1983.

Əliyevanın[14], Cəmilə Həsənovanın[15], Telman Qəniyevin[16], Vəli Məmmədovun[17], Rafiq Musazadənin[18], Səadət Təhmirazqızının[19], Zemfira Səfərovanın[20], Firidun Şuşinskinin[21], Ramiz Zöhrabovun[22] və başqa musiqişünas alimlərin əsərləri mühüm əhəmiyyətə malikdir.

Şifahi ənənəli Azərbaycan musiqisində səsyazma tədqiqat üçün xüsusilə vacibdir. Respublikanın müxtəlif arxivlərində saxlanılan XX əsrin əvvəllərinə aid "Ekstrafon", "Sport-Rekord", "Pate" və digər xarici səsyazma firmalarının buraxdığı qrammofon vallarının əksəriyyətində Azərbaycan

---

[12] Əmirov F.C. Musiqi aləmində. B.: Gənclik , 1983.

[13] Əbdülqasımov V.Ə. Qəzəl janrının xanəndə ifaçılığında təzahürü. // "Konservatoriya" jurnalı, 2009, № 5-6, s.138-146.; Azərbaycan tarı. B.: İşıq, 1989; Böyük tarzən Mirzə Sadıq Əsəd oğlunun tar islahatları. // «Musiqi dünyası» jurnalı, № 1-2 (7), 2001, s. 102-106.

[14] Əliyeva F.Ş. Azərbaycan musiqisinin dövrləşdirilməsinə dair mülahizələr. // "Musiqi dünyası", 2003, №1-2/15, s.77-81.; Musiqi tariximizin səhifələri. B.: Adiloğlu, 2003; XX əsrin II yarısında Azərbaycan musiqisinin yeni inkişaf yolları. B.: Elm, 2012; XX əsr Azərbaycan musiqisi: Tarix və zamanla üz-üzə. B.: Elm, 2007.

[15] Həsənova C.İ. Arif Babayev-70 // "Musiqi dünyası" jurnalı. 2008, № 1-2/35, s.131-132.; Həsənova C.İ. Milli musiqi mədəniyyətimizin qorunması yolunda mühüm addım. // "Musiqi dünyası" jurnalı, №1-2(23), 2005. s. 225-227.; "Muğam ensiklopediyası" layihəsi // "Musiqi dünyası" jurnalı, № 1-2 (39), 2009, s. 82-83.; Üzeyir Hacıbəyli yaradıcılığında milli musiqinin nəzəri əsasları. B.: 2009; Azərbaycan musiqisinin məqamları. Dərs vəsaiti. B.: Elm və təhsil, 2012; Qarabağ xanəndələri layihəsi // "Musiqi dünyası" jurnalı, 2005, № 1-2 /23, s. 25.; Bülbül Azərbaycan professional vokal sənətinin banisidir // "Musiqi dünyası" jurnalı, 2001, № 1-2, s.27-28.

[16] Qəniyev T.X. Azərbaycan xanəndəlik sənətində musiqi məclislərinin rolu. // "Musiqi dünyası" jurnalı, 2009, № 1-2/39, s.102-104; Əlibaba Məmmədovun təsniflərində ritm intonasiya prinsipləri. // "Musiqi dünyası" jurnalı, 2007, № 1-2/31, s.167-169.

[17] Məmmədov V.M. Muğam, söz, ifaçı. B.: İşıq,1981; Ölməz sənətkar. "525-ci qəzet", 2011, 23 fevral.

[18] Musazadə R.M. "Dügah" dəstgahı. B.: Adiloğlu, 2009; Qədim muğamlar. B.: MBM, 2013; Muğamın tədrisi metodikası. B.: MBM, 2012.

[19] Təhmirazqızı S. Sənətin Əlövsər zirvəsi. B.: El, 2007; Şəkidə xanəndəlik sənəti// "Musiqi dünyası" jurnalı, 2007 № 1-2/31, s. 41-43.; Ustad sənətkar. Əlibaba Məmmədov. B.: 2015.

[20] Səfərova Z.Y. Azərbaycan musiqi elmi (XIII-XX əsrlər). B.: Azərnəşr, 2006; Şərq musiqisinin peyğəmbəri. Cabbar Qaryağdıoğlu. B.: Şərq-Qərb, 2009.

[21] Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı, 1985; Cabbar Qaryağdıoğlu. B.: İşıq,1987; Xan Şuşinski. B.: Gənclik, 1989; Musiqişünasın düşüncələri. B.: Gənclik, 1995; Poeziya və musiqi. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1985, 19 iyul.; Seyid Şuşinski. B.: İşıq,1966.

[22] Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991; Bülbül və Azərbaycan xalq musiqisi. // "Musiqi dünyası" jurnalı, 2001, № 1-2/7, s. 129-134; Şifahi ənənəli Azərbaycan professional musiqisi. B.: Azərbaycan Ensiklopediyası, 1996; Zərbi muğamlar. B.: Mars Print, 2004.

xanəndələrinin ifaları həkk olunmuşdur. Səsyazıları irsi XX əsrin II yarısından başlayaraq, xüsusilə XXI əsrin əvvəllərində geniş vüsət almışdır. O cümlədən, muğamların not yazılarının həyata keçirilməsi vacib məsələlərdən biri kimi diqqəti cəlb edir. Muğamların müasir texniki vasitələrlə CD-DVD disklərə yazılması və not yazılarının nəşri onların qorunmasını və bütün zənginliyi ilə gələcək nəsillərə ötürülməsini təmin edir.

"Musiqi dünyası" jurnalının elektron nəşrlər mərkəzi tərəfindən qrammofon vallarının bərpası əsasında hazırlanmış elektron mənbələr muğam sənəti və xanəndə yaradıcılığının tədqiqi üçün əsas mənbələrdən biri kimi qeyd olunmalıdır. Jurnalın redaktoru və naşiri Tariyel Məmmədovun rəhbərliyi ilə nəşr olunmuş qrammofon valları və saytlar[23] tədqiqat mənbəyi kimi qiymətli nəşrlərdir.

Azərbaycan xanəndələrinin və instrumental ifaçıların yaradıcılıq ənənələrini əks etdirən not yazıları xanəndələrin yaradıcılığının öyrənilməsinə imkan verir. Bu istiqamətdə Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin xalq mahnı və təsniflərinin not yazılarından başlayaraq, Səid Rüstəmovun, Tofiq Quliyev və Zakir Bağırovun, Əhməd Bakıxanovun, Arif Əsədullayevin, Nəriman Məmmədovun, Ramiz Zöhrabovun[24] və b. muğamların, zərbi

---

[23] Azərbaycan diskoqrafiyası (1900-1940) on-line kataloqu. http://diskografiya.musiqi-dünya.az; Azərbaycan muğam dəstgahları. Arif Babayev, Yaqub Məmmədov, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov. Vallar albomu və rəngli buklet (azərbaycan, rus, ingilis dillərində). Mətnin müəllifi və tərtibçi T.Məmmədov. Azərbaycan SSR Mədəniyyət Nazirliyinin sifariş nəşri. B.: İşıq, 1989.; Джаббар Карьягды оглы. Азербайджанские мугамы и теснифы. Курбан Примов – тар, Саша Оганезашвили – кеманча. Записи 1905-1915 гг. ВПТО фирма «Мелодия», 1991. Моно М9049501007. Составитель серии Тариель Мамедов.; Кечачи оглы Махаммад. Азербайджанские мугамы и теснифы. Курбан Примов – тар, Саша Оганезашвили – кеманча. Записи 1906 г., ВПТО фирма «Мелодия», 1991. Моно М9049505006. Составитель серии Тариель Мамедов.; http://uzeyir.musigi-dunya.az; http://enene.musigi-dunya.az; http://lugat.musigi-dunya.az; http://mugam.musigi-dunya.az; http://xan.musigi-dunya.az

[24] Azərbaycan türk el nəğmələri. Not yazısı Ü.Hacıbəyovun və M.Maqomayevindir. B.: 1927. Təkrar nəşr: B.: 1985; Rüstəmov S. Cabbar Qaryağdıoğlunun ifasından 50 Azərbaycan xalq mahnısı. B.: 1937; Rüstəmov S. Azərbaycan xalq mahnıları. B.: 1967; Azərbaycan xalq mahnıları. Not yazısı S.Rüstəmovun, F.Əmirovun və T.Quliyevindir. (red. Bülbül). 2 cilddə. B: 1956-1958; Təkrar nəşr: B.: İşıq, 1981; Azərbaycan muğamları "Rast", "Zabul", "Dügah". Tarzən Mansur Mansurovun ifasından. Not yazısı T.Quliyev və Z.Bağırovundur. B.: 1936.; Bakıxanov Ə.M. Muğam, mahnı, rəng. B.: 1975; Əsədullayev A.M. İnstrumental muğamlar. B.: 2009; Məmmədov N.H. Azərbaycan muğamı "Şur" və "Bayatı-Şiraz". B.: 1962; Azərbaycan muğamı "Rəhab" və "Segah-Zabul". B.: 1965; Azərbaycan muğamları "Rast" və "Şahnaz". B.: Azərnəşr, 1963; Azərbaycan muğamı

muğamların, təsnif və rənglərin not yazıları, eləcə də Gülnaz Abdullazadə və Telman Qəniyevin, Malik Quliyevin[25] bilavasitə xanəndələrin adı ilə bağlı mahnı və təsniflərdən ibarət not məcmuələri qeyd olunmalıdır.

Xanəndəlik sənətinin öyrənilməsi istiqamətində bir sıra jurnalistlərin yaradıcılığı da diqqəyəlayiqdir. Onlardan Mustafa Çəmənlinin[26], Möhbəddin Səmədin[27] və başqa müəlliflərin muğam ifaçıları haqqında elmi və publisistik əsərləri – kitab və məqalələri işıq üzü görmüşdür.

Qeyd olunan nəşrlərlə yanaşı, mətbuat səhifələrində və internetdə muğam sənətinin inkişafı, ustad muğamatçıların sənət yolu ilə bağlı olduqca çox sayda məqalələr öz əksini tapmışdır. Bütün bu nəşrlər haqqında məlumat dissertasiyanın "İstifadə edilmiş ədəbiyyat" bölməsində verilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada ilk dəfə olaraq, Azərbaycan xanəndəlik sənətinin müasir dövrdə inkişafı məsələləri tam əhatəli şəkildə tədqiq olunmuş, xanəndələrin müasir musiqi mədəniyyətindəki xidmətləri, muğam sənətindəki yeniliklər, ifaçılıq ənənələri araşdırılaraq üzə çıxarılmış, ustad xanəndələrin yaradıcılıq irsi öyrənilmişdir.

Eyni zamanda, tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, xanəndəlik sənətinin müasir inkişaf dövründə muğam ifaçılıq ənənələrinin öyrənilməsi məsələləri irəli sürülmüş, ifaçılıq mədəniyyətinin yüksəldilməsi, ənənələrin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində tədqiqat aparılmışdır.

Təqdim olunmuş dissertasiyada, ilk dəfə olaraq, Azərbaycan xanəndəlik sənətinin inkişafının tarixi mərhələləri və müasir yüksəliş dövrü ardıcıl xarakterizə olunaraq, qədim dövrdən bizim günlərə kimi xanəndəlik sənətinin inkişaf mənzərəsi təsvir olunmuşdur. Müasir dövrdə Heydər Əliyev

---

"Çahargah". M.: 1970; Azərbaycan muğam-dəstgahı "Rast". M.: Советский композитор, 1978; Зохрабов Р.Ф. Азербайджанские теснифы. М.: Советский композитор, 1983; Азербайджанские зерби мугамы. Б.: Ишыг, 1986; Zöhrabov R.F. Zərbi – muğamlar. B.: Mars – print, 2004.

[25] Əlibaba Məmmədovun təsnifləri. Dərs vəsaiti. (tərtib edənlər G.Abdullazadə, T.Qəniyev). Bakı : Adiloğlu, 2007; Qəniyev T. Əlibaba Məmmədovun mahnıları. Dərs vəsaiti. B.: 2012; Arif Babayevin mahnı və təsnifləri (tərtib edən M.Quliyev). B.: "Təhsil", 2012.

[26] Çəmənli M.Ş. Leyli və Məcnun 100 il səhnədə. B.: El, 2008; Məcnunun Məcnunu. B.: Təhsil, 2010; Muğam dünyasının Xanı. B.: Gənclik, 2001; Nəğməli xatirələr. B.: El, 2007; Oxu gözəl. B.: Nağıl evi, 2005; Səsin ruhu. B.: Gənclik, 2003; Şövkət Ələkbərova. B.: İşıq, 1989.

[27] Səməd M.Ə. İncəsənət ustaları. B.: İşıq, 1987; Səsin sehri varmış. B.: Adiloğlu, 2014; Şux rənglərin təranələri. B.: Çağdaş AS, 2011; Yaddaşımızın yaşıdları. B.: Azərbaycan Milli Ensikpolediyası, 2003.

Fondunun muğamın inkişafına yönəlmiş möhtəşəm layihələrinin əhəmiyyəti, bu layihələrdə xanəndələrin iştirakı dəyərləndirilmişdir.

Dissertasiyada Azərbaycan mədəniyyət tarixinin təkamülü və inkişafı kontekstində xanəndəlik sənətinin tarixi dövrləşməsi və inkişaf mərhələlərinin ardıcıllıqla tam mənzərəsi göstərilmişdir. Bu tədqiqat işində milli musiqi sənətində xüsusi rolu və əhəmiyyəti olan xanəndəlik sənətinin müasir dövrdə inkişafı geniş, əsaslı şəkildə öyrənilir və qarşıya qoyulmuş aktual məsələlər tarixi-nəzəri aspektdən işıqlandırılır. Azərbaycan muğam ifaçılığı sənətini yaşadan ustad xanəndələrin Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı mühüm rolu və əhəmiyyəti müəyyənləşdirilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan xanəndəlik sənətinin təkamül mərhələlərinin və müasir dövrdə nailiyyətlərinin araşdırılmasından ibarətdir. Ustad sənətkarların muğam ənənələrinin milli mədəniyyətimizin ümumi inkişafı kontekstində əhəmiyyətinin qiymətləndirilməsi, müasir dövrdə xanəndələrin ifaçılıq xüsusiyyətlərinin üzə çıxarılması tədqiqatın məqsədlərinə daxildir.

Qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur: 1) Müasir dövrdə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin xanəndəlik sənətinin inkişafındakı əhəmiyyətinin xarakterizə olunması; 2) Azərbaycanda xanəndəlik sənətinin təşəkkülü və formalaşmasının öyrənilməsi; 3) Xanəndəlik sənətinin tarixi dövrləşməsi və inkişaf yolunun xarakterizə olunması; 4) Milli musiqi mədəniyyətinin inkişafında muğam ifaçılarının fəaliyyətinin əhəmiyyətli rolunun göstərilməsi; 5) XX əsrin II yarısında və XXI əsrin əvvəllərində xanəndələrinin səsyazılarının tədqiqi, repertuarın və yaradıcılıq irsinin araşdırılması; 6) Müasir dövrdə xanəndələrin fəaliyyət sahələrinin əsas xüsusiyyətlərinin üzə çıxarılması; 7) Azərbaycan muğamlarının təkamülündə xanəndələrin yaradıcı fəaliyyətinin xarakterizə olunması; 8) Azərbaycan professional musiqisinin inkişafında xanəndələrin rolunun öyrənilməsi və onların yaradıcılığının xarakterizə olunması qarşıya qoyulan əsas vəzifələr sırasındadır.

**Tədqiqatın metodoloji əsasını** tarixi və musiqişünaslıq təhlili metodları təşkil edir. Tədqiqat işində bu metodlardan istifadə olunaraq, qarşıya qoyulan problemin həlli yolları göstərilmiş və öyrənilmişdir.

Mövzunun işlənilməsində Ü.Hacıbəyli, E.Abasova, G.Abdullazadə, S.Abdullayeva, E.Babayev, Ə.Bədəlbəyli, V.Əbdülqasımov, M.İsmayılov, Q.Qasımov, R.Məmmədova, Z.Səfərova, R.Zöhrabov və başqa musiqi-

şünas alimlərin əsərləri üzərində aparılan araşdırmaların nəticələrindən istifadə olunmuşdur.

**Tədqiqatın obyekti** Azərbaycan muğam ifaçılığı sənətinin öyrənilməsindən və müasir dövrdə xanəndələrin milli musiqi mədəniyyətinin inkişafındakı rolunun müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın predmetini** xanəndəlik sənətinin ifaçılıq, yaradıcılıq və tədrislə bağlı əsas sahələrinin inkişaf mərhələlərində əldə etdiyi nailiyyətlərin araşdırılması təşkil edir.

**Dissertasiyanın faktiki materialı.** Azərbaycan xanəndələrinin muğam ifaçılığı üslubunu araşdırmaq üçün qiymətli mənbə sayılan qrammofon valları və lent yazıları, elmi ədəbiyyatda öz əksini tapmış muğamların not yazıları və arxiv sənədləri dissertasiyanın materialını təşkil edir.

**Dissertasiyanın təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, bu mövzunun işlənilməsi onunla bağlı geniş problemlərin tədqiqinə təkan verə bilər. Dissertasiyanın nəticələri musiqişünaslığın və musiqi tədrisinin müxtəlif sahələrində tətbiq oluna bilər. Bu tədqiqat işi gələcəkdə muğam ifaçılarının yaradıcılığının bu rakursda öyrənilməsi üçün yollar açır. İşin əsas müddəa və nəticələrindən elmi müəssisələrdə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Milli Konservatoriyasında, Bakı Musiqi Akademiyasında, eləcə də digər ali və orta ixtisas musiqi məktəblərində "Azərbaycan xalq musiqi yaradıcılığı", "Muğam sənəti", "Mənbəşünaslıq", "Azərbaycan milli ifaçılıq sənətinin tarixi" fənlərinin tədrisində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqişünaslıq" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın mövzusu ilə bağlı müəllifin elmi məqalələri və məruzələrində işin əsas müddəaları öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, üç fəsil (onların daxilində altı bölmə), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Azərbaycanda peşəkar muğam ifaçılığının təşəkkülü və inkişaf mərhələləri" adlanır. Bu fəsil iki bölmədən ibarətdir.**

**1.1. “Azərbaycan xanəndəlik - muğam ifaçılığı sənəti tarixinin dövrləşməsi və XX əsrə qədər inkişaf yolunun xüsusiyyətləri”** araşdırılır. Azərbaycan xanəndəlik sənətinin inkişafında hər bir tarixi-siyasi dövr özünəməxsus cəhətlərlə əlamətdar olmuşdur. Xanəndəlik sənətinin tarixi inkişaf yolunun dövrləşməsini bu şəkildə aparmışıq: I. Qədim dövrdən başlayaraq, erkən orta əsrlər dövrü (X əsrə qədər) – xanəndəlik sənətinin yaranması ilə bağlı ilkin məlumat; II. Orta əsrlər, X-XVII əsrlər – Şərq İntibahı dövrü, klassik poeziyanın və muğam sənətinin inkişafı; III. XVIII – XIX əsrlər – Azərbaycanın ayrı-ayrı bölgələrində muğam məktəblərinin meydana gəlməsi, Azərbaycan tarının yaranması; IV. XX əsrin əvvəllərindən 1990-cı illərə qədər; V. Müstəqillik dövrü - 1991-ci ildən XXI əsrin əvvəlləri, hazırkı dövrə qədər - xanəndəlik sənətinin yüksək inkişaf dövrü. Bu dövrlər üzrə xanəndəlik sənətində tədrici zənginləşmə özünü göstərir.

Qeyd etmək lazımdır ki, xanəndəlik – səslə oxuma sənətidir. Musiqidə səslə oxuma – vokal musiqi termini ilə müəyyən olunur. Həmçinin, səslə oxuyan ifaçılar – oxuyan, nəğməkar, müğənni adlandırılır. Elmi ədəbiyyatda qədim dövrlərin musiqi tarixində bu anlayışlara rast gəlirik. Dünya musiqi tarixinə nəzər salsaq, demək olar ki, bütün ölkələrdə vokal musiqi qədim dövrlərdən inkişaf etməyə başlamışdır.

Xanəndəlik sənətinin inkişafının birinci dövründə - qədim dövrlərdən cəmiyyətin musiqi həyatında xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, dini musiqi və saray musiqisindən ibarət təbəqələrdə öz əksini tapmışdır. Qədim dövrlərdən başlayaraq, xalq arasından musiqi sənətinə yiyələnmiş, öz işinin ustaları olan daha hazırlıqlı və istedadlı sənətkarlar: xalq musiqisinin yaradıcıları və ifaçıları, aşıqlar, müğənnilər, çalğıçılar, rəqqaslar və s. yetişmişdir. Musiqinin kənd və şəhər əhalisi arasında inkişafı prosesində təbəqələşmə meydana çıxmışdır. Tarixi inkişaf mərhələlərində bunlar müəyyən təkamülə məruz qalmış, bir-birinə qarşılıqlı təsir göstərərək, şifahi ənənəli musiqi mədəniyyətinin özünəməxsus xüsusiyyətlərə malik sahələri kimi inkişaf edib, bizim günlərə çatmışlar və bu proses bu gün də davam etdirilir.

Xanəndəlik sənətinin təşəkkülünün ikinci dövrü Orta əsrlərə aid olub, X əsrdən başlayaraq, klassik poeziyanın və muğam sənətinin inkişafı ilə səciyyələnir. Elmi ədəbiyyatda “Şərq intibahı” adlandırılan orta əsrlər dövrü bəşər tarixinə bir sıra mütəfəkkir şair və filosofları bəxş etmişdir.

Şərq aləmində Orta əsrlər dövründə muğam ifaçılığı sənəti böyük şəhərlərdə saray mədəniyyəti kimi çiçəklənmə dövrünü yaşayıb. Muğamın bir janr kimi formalaşması, muğam ənənələrinin, terminologiyanın yaranması,

muğam tərkiblərinin sistemləşməsi bu dövrə aiddir. Xanəndəlik - saray musiqiçisi kimi xarakterizə olunaraq, musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamağa başlamış, muğam ifaçılığı sənəti şifahi ənənəli professional musiqinin yüksək inkişaf etmiş təbəqəsini təşkil etmişdir.

Orta əsrlərdə musiqi ilə məşğul olan şəxslərin, saraylarda yaşayıb-yaradan şairlərin, xanəndələrin, müxtəlif musiqi alətləri ifaçılarının adları və fəaliyyətləri barədə məlumat ümumi şəkildədir. Lakin bu dövrdə musiqişünaslığın elm sahəsi kimi inkişafı xüsusilə diqqəti cəlb edir. Muğam ifaçılığı sənəti haqqında musiqiçi-alimlərin traktatlarında müəyyən fikirlər öz əksini tapmışdır. Musiqi ilə, bilavasitə muğamlarla bağlı olaraq ilkin elmi-ədəbi mənbələrin yaranması da məhz orta əsrləri əhatə edir.

Xanəndəlik sənətinin tarixi inkişafının üçüncü dövrü XVIII – XIX əsrləri əhatə edir. Bu dövrün əsas hadisələri Azərbaycanın ayrı-ayrı bölgələrində – Qarabağ, Abşeron, Şirvan və s., muğam ifaçılığı ənənələrini yaşadan muğam mühitlərinin və muğam məktəblərinin meydana gəlməsi ilə bağlıdır. Həmçinin, XIX əsrdə böyük tarzən Mirzə Sadıq Əsəd oğlunun yaradıcılıq fəaliyyəti - Azərbaycan tarının yaranması muğam sənətinin inkişafının yeni mərhələsi olmuşdur. Bu dövrdə Azərbaycan muğamının inkişafı, ifaçılıq ənənələrinin ötürülməsinin genişlənməsi, xanəndəlik sənətinin yeni mərhələyə qədəm qoyması müşahidə olunur. Görkəmli şair və yazıçıların, alimlərin və muğam bilicilərinin – Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab və b. yaradıcılığı, müxtəlif bölgələrdə fəaliyyət göstərən poeziya və musiqi məclisləri, muğam məktəbləri bu dövrün əlamətdar hadisələridir. Xanəndələrin ənənəvi fəaliyyət sahələri – toy məclisləri ilə yanaşı, onların yaxından iştirakı ilə keçirilən poeziya və musiqi məclisləri muğam ifaçılığının inkişafında böyük rol oynamışdır.

Bu dövrdən xanəndəlik sənəti özünün yeni mərhələsinə qədəm qoyur, xanəndəlik məktəbləri haqqında geniş məlumata rast gəlinir, xanəndələr müxtəlif təbəqələrə bölünür, ustad xanəndələr - sənətkarlığın yüksək səviyyəsinin təmsilçiləri kimi önə çıxırlar. Bu dövrdə xanəndəlik sənətinin inkişafı Azərbaycanın müxtəlif şəhərlərinin adı ilə bağlı idi. Bu şəhərlər arasında Şuşa, Şamaxı, Bakı xüsusi yer tuturdu.

Beləliklə, XX əsrə qədərki dövrdə xanəndəlik sənətinin inkişafından söhbət açarkən əsas diqqəti cəlb edən amil - bu dövrdə muğam ifaçılığı sənətinin və xanəndəliyin inkişafında musiqi məclisləri və musiqi məktəblərinin rolunun önə çıxması ilə bağlıdır. Məhz bu məclislər və məktəblər XX əsrin əvvəllərində muğam ifaçılığı sənətinin qızıl dövrünü yaşamasına səbəb olmuşdur.

**1.2. “XX əsrdə və XXI əsrin əvvəllərində muğam ifaçılığının inkişafı”** öyrənilir. Bu dövr xanəndəlik sənətinin inkişafında dördüncü mərhələni təşkil edir. XX əsri tarixi-siyasi hadisələrə əsaslanaraq, bir neçə mərhələyə bölmək olar. Belə ki, XX əsrdə Azərbaycan cəmiyyətində dörd ictimai formasiya özünü göstərir: rus imperiyasının əsarəti dövrü, Azərbaycan Xalq Çümhuriyyəti dövrü, Sovet dövrü və müstəqil Azərbaycan Respublikası dövrü. Hər bir dövrün özünəməxsusluğu, mədəniyyətin inkişafına müsbət və mənfi cəhətləri qeyd olunmaqla, deməliyik ki, muğam ifaçılığı sənəti əvvəlki dövrlərdə əldə etdiyi ənənələri davam etdirərək, inkişaf etmiş, yeni nailiyyətlər əldə etmişdir.

XX əsrin əvvəllərində xanəndəlik sənətinin inkişafında üç mühüm cəhət önə çıxır: 1) XX əsrin əvvəllərindən xanəndələr məclislərin iştirakçısı olmaqla bərabər, konsert səhnələrində uğurla çıxış edirlər. 2) 1908-ci ildə milli operanın yaranması ilə xanəndələr opera artisti qismində teatr səhnəsinə çıxırlar. Bu proses opera sənətində yeni istiqamətin yaranmasına yol açdı. 3) XX əsrin əvvəllərində xanəndələrimizin səsləri qrammofon vallarına yazıldı və bu vallar təkcə keçmiş Rusiya imperiyası sərhədləri daxilində deyil, eyni zamanda dünyada da tanınmağa başladı.

1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə musiqi həyatının tərkib hissəsi olan xanəndə yaradıcılığının yeni məzmunla zənginləşməsi müşahidə olunur. Ölkənin mədəni həyatında həmişə yaxından iştirak edən xanəndələr – Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Seyid Şuşinski və başqaları milli mədəniyyətin inkişafına dəyərli yardım göstərmiş, xanəndə və çalğıçıların musiqili səhnəciklərində çalıb-oxumuş, xeyriyyə konsertlərində, bayramlarda və başqa el şənliklərində yaxından iştirak etmişlər. Bu xanəndələr bütün qüvvə və biliyini milli musiqi mədəniyyətinin, xüsusilə xanəndəlik sənətinin yüksəlişinə həsr etmişlər.

Sovet dövründə (1920-1991) xanəndəlik və muğam ifaçılığı sənətində əvvəlki dövrlərin nailiyyətləri üzərində fəaliyyət sahələrinin davam etdirilməsi ilə yanaşı, təhsil sistemində xanəndələrin müəllim kimi fəaliyyəti qeyd olunmalıdır. Musiqi təhsili sisteminin bir qolu kimi, muğam ifaçılığı sənətinin üç pillədən ibarət olaraq tədrisinin əsası qoyulmuşdur: uşaq musiqi məktəblərində, orta ixtisas musiqi məktəblərində, ali musiqi məktəblərində muğam - xanəndəlik və xalq çalğı alətləri ifaçılığı tədris olunmağa başlamışdır.

XX əsrin 30-40-cı illərində artıq Azərbaycan xanəndələri təkcə Azərbaycan səhnəsində deyil, ümumittifaq səhnələrində görünürdülər. Onların

fəaliyyəti keşmiş SSRİ başçıları tərəfindən yüksək qiymtləndirilirdi. İkinci dünya müharibəsi zamanı onlar ön cəbhədə əsgərlərə konsertlər verir, onları ruhlandırırdılar. Sovet dövründə toy, ziyafətlərə getmək bir qədər məqbul sayılmadığına görə onlar daha çox səhnədə, radioda çıxışlar edir, vallara səslərini yazdırırdılar.

Elmi sahədə folklorşünaslığın inkişaf etdirilməsi istiqamətində muğam ifaçılarının – görkəmli xanəndələrin və tarzənlərin iştirakı ilə not yazıları və səs yazıları irsi meydana gəlmişdir. Muğam ifaçılığı xüsusi tədqiqat obyektinə çevrilmişdir, görkəmli xanəndələr və xalq çalğı alətləri ifaçıları haqqında elmi və publisistik əsərlər - monoqrafiyalar və məqalələr nəşr edilmişdir.

XX əsrin ikinci yarısında xanəndə ifaçılığında müşayiət formalarının dəyişməsi, xalq çalğı alətləri ansamblları - üçlük şəklində çıxış edən xanəndələr xalq çalğı ansambllarının müşayiəti ilə konsertlərdə çıxış etməyə başladılar.

1956-cı ildə Azərbaycan televiziyasının işə düşməsi ilə sənət xalqa bir az da yaxınlaşdırılmış oldu. Beləliklə, Respublikanın ən ucqar nöqtələrində yaşayan əhali üçün də sənət nümunələrinin eşidilməsi əlçatan oldu. Radioda və televiziyada ansamblların müşayiəti ilə səsləndirilən muğamlar tez bir zamanda Qızıl fonda yazılır, vallar şəklində buraxılırdı. Bu gün Qızıl fondda minlərlə belə səsyazısına rast gələ bilərik ki, onlar milli mədəni dəyərlərimizdir.

1970-ci illərdə yeni muğam operaları yaradılıb səhnəyə qoyuldu: Cahangir Cahangirovun "Xanəndənin taleyi", Şəfiqə Axundovanın "Gəlin qayası" operaları xanəndə ifaçılığı üçün nəzərdə tutularaq, opera sənətinin bu qolunu zənginləşdirdi.

Xanəndəlik sənətinin inkişafının beşinci mərhələsində - müstəqil Azərbaycan Respublikası dövründə (1991-ci ildən bu günə kimi) Qarabağda baş verən faciəvi hadisələr bütün cəmiyyətdə olduğu kimi, mədəniyyətdən, bilavasitə muğam ifaçılarının yaradıcılığından da yan keçməmişdir. Qədim ənənələrə malik Qarabağ muğam ifaçılığı məktəbinin ənənələrinin davamçıları olan xanəndələrin fəaliyyəti, Azərbaycan muğamının mühüm bir qolu kimi Qarabağın musiqi ənənələrini yaşatmağa və dünyada təbliğ etməyə yönəlmişdir.

XXI əsrin başlanğıcı – muğamın yeni intibah dövrü, beynəlxalq muğam layihələrinin həyata keçirilməsi, xanəndələrin beynəlxalq arenada fəaliyyətinin genişlənməsi dövrü kimi xarakterizə oluna bilər.

**Dissertasiyanın II fəsli "Müasir dövrdə xanəndəlik sənətinin əsas sahələri"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

**2.1. "Xanəndə ifaçılığının səciyyələndirilməsi. Görkəmli muğam ustadlarının yaradıcılığı"** tədqiq olunur. XX əsrin birinci yarısında xanəndəlik sənətinin əsas fəaliyyət istiqamətləri formalaşaraq, ənənəvi xüsusiyyətlər kəsb etmişdir. XX əsrə qədər xanəndəlikdə məclis musiqiçisi kimi fəaliyyət sahəsi aparıcı olmuşdur. Xanəndə hazırlığı istisna hallarda xüsusi məktəblərdə aparılsa da, əsasən, fərdi qaydada ustad ənənələrinin ötürülməsinə əsaslanmışdır. Xanəndələr ifaçı olmaqla yanaşı, həm də XX əsrin əvvəllərindən xanəndəlik sənətində məclis və ustad kimi fəaliyyət dairəsi saxlanılmaqla, eyni zamanda, genişlənmiş, konsert ifaçısı, opera artisti, müəllimlik, musiqi yaradıcılığı (bəstəkarlıq), tədqiqatçılıq kimi fəaliyyət sahələri meydana gəlmişdir. XX əsrin II yarısından bütün bu sahələr üzrə xanəndəlik sənətinin inkişaf etdirilməsi özünü göstərir. Bir sıra xanəndələr bütün fəaliyyət sahələrini özündə cəmləşdirsə də, bəzi xanəndələr əsasən məclis və konsert ifaçısı, eləcə də müəllim kimi tanınmışlar. XXI əsrin əvvəllərində də bu sahələr öz davamını tapmış və daha da geniş inkişafa uğramışdır.

Bu baxımdan xanəndələri əsas iki istiqamətdə səciyyələndirmişik: 1) konsert və məclis ifaçısı, opera artisti, təsnif bəstəkarı, muğamların yeni variantlarının yaradıcısı, ustad-müəllim, ictimai xadim – təşkilatçı, bədii rəhbər; 2) konsert və məclis ifaçısı, yaradıcı – təsnif bəstəkarı, muğamların yeni variantlarının yaradıcısı, ustad-müəllim. Bu iki istiqamət arasındakı fərq əsasən xanəndələrin opera səhnəsindəki fəaliyyəti ilə və ictimai sahədəki fəaliyyəti ilə bağlıdır. Bundan əlavə hər iki istiqamətdə xanəndələrin fəaliyyəti fərdi yaradıcılıq xüsusiyyətləri ilə fərqlənir və hansısa fəaliyyət sahəsi istisnalıq təşkil edə bilər.

Müasir dövrdə xanəndələrin bu sahələrdə fəaliyyəti geniş vüsət almış, vətənimizin sərhədlərini aşaraq, dünya ölkələrində qastrol səfərlərinin genişlənməsinə səbəb olmuşdur. Xanəndələrin beynəlxalq festivallarda çıxışları, beynəlxalq layihələrdə iştirakı da son dövrlərdə geniş yayılmışdır.

Xanəndələr konsert və məclis ifaçıları olmaqla yanaşı, yaradıcı sənətkar – təsnif bəstəkarı və muğamların yeni variantlarının yaradıcısı, ustad-müəllim, opera artisti, bəzi hallarda tədqiqatçılıq, təşkilatçılıq, bədii rəhbərlik və ictimai sahələrdəki fəaliyyətinə görə fərqlənir. Onu demək lazımdır ki, bütün bu sahələri özündə cəmləşdirən sənətkarlar çox azdır. Bu baxımdan Arif Babayevin yaradıcılığı nümunə ola bilər.

Xanəndələrin yaradıcılıq fəaliyyəti - təsniflərin və yeni muğam variantlarının yaradılması, həmçinin onların ustad-müəllim kimi yeni nəsil xa-

nəndələrin yetişdirilməsi bu sənətin qədim dövrlərdən formalaşmış ənənəvi cəhətləridir və bu günə kimi öz davamını və inkişafını tapır. Yalnız onu demək lazımdır ki, bu cəhət heç də bütün xanəndələrdə müşahidə olunmur.

Nəzərə almalıyıq ki, bütün xanəndələrin yaradıcılığı muğam və təsnif ifaçılığına əsaslansa da, çox az xanəndələr təsnif bəstəkarı kimi tanınmışlar. Bu sırada XX əsrin ikinci yarısında Əlibaba Məmmədov yaratdığı təsniflərlə və mahnılarla şöhrət qazanmışdır. Eyni zamanda, Hacıbaba Hüseynovun, Qulu Əsgərovun, Arif Babayevin, İslam Rzayevin və b. xanəndələrin adını çəkməliyik.

Xanəndə yaradıcılığı şifahi ənənələr əsasında təşəkkül tapıb inkişaf etdiyinə görə, xanəndələr yaratdıqları təsnifləri konsertdə və ya məclisdə oxuyaraq, dinləyicilərə təqdim edirlər, bundan sonra həmin təsniflər yaddaşlarda qalaraq, digər xanəndələrin də repertuarına daxil olur, oxunur və xalq arasında yayılır.

Bir cəhəti də qeyd edək ki, sovet dövründə xanəndələrin yaratdıqları təsniflər xalq mahnısı adı ilə təqdim olunurdu. Bu mənada, bir çox təsniflərin kimə məxsus olduğunu aydınlaşdırmaq çətinlik yaradır. Əlbəttə ki, qədim dövrdən meydana gələn təsniflərin müəlliflərini bilməsək də onların variantları yaddaş vasitəsilə nəsil-nəsil ötürülərək, bizə gəlib çatmışdır. XX əsrdə isə səs yazı texnikasının inkişaf etməsi həmin təsniflərin müəlliflərini və ifaçılarını tanıtmağa imkan verir.

Muğamların yeni variantlarının yaradılması da xanəndələrin yaradıcılıq – ifaçılıq keyfiyyətləri ilə bağlı olub, hər bir xanəndənin ifaçılıq tərzindən meydana gələn xüsusiyyətdir. Hər bir xanəndə oxuduğu muğama öz nəfəsini, öz oxuma tərzini, özünəməxsus ifaçılıq ənənəsini gətirir. Bu baxımdan hər bir xanəndə yaradıcılıq keyfiyyətlərini nümayiş etdirir.

Muğamın ənənəvi, hamı tərəfindən qəbul olunmuş və kök salmış ifa tərzinə yeni cizgilər gətirən xanəndələrin adı muğam ifaçılığında xüsusilə qeyd olunur. Bu baxımdan, Hacıbaba Hüseynov, Yaqub Məmmədov, İslam Rzayev, Arif Babayev, Əlibaba Məmmədov, Alim Qasımov və onlarla digər xanəndələrin adını çəkmək olar.

Xanəndəlik sənətində mühüm əhəmiyyətli cəhətlərdən biri muğamın qayda-qanunlarını dərindən bilən yeni ifaçılar nəslinin yetişdirilməsi, muğamın ifaçılıq sirlərinin, ustad ənənələrinin hafizələrdə qorunaraq, fərdi surətdə, yaddaş vasitəsilə gənc xanəndələrə ötürülməsidir. Bunu da xüsusi pedaqoji istedada və təcrübəyə malik olan xanəndələr həyata keçirirlər.

Müasir dövrdə, demək olar ki, çox az istisnalar olmaqla, bütün xanəndələr müəllimliklə məşğul olurlar – uşaq musiqi məktəblərində, musiqi kolleclərində, ali musiqi məktəblərində gənc nəsil xanəndələrin yetişdirilməsi prosesi gedir ki, bu da muğam sənətinin ötürülməsinə xidmət edir. Buna görə də müəllimlik xanəndəlik sənətində ənənəvi olan vacib cəhətlərdən biridir.

XX əsrin II yarısında muğam ifaçılığı sənətinin klassik ənənələr üzrə tədrisi Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda aparılmış və müasir dövrdə fəaliyyət göstərən ustad xanəndələrin böyük əksəriyyəti bu tədris ocağının yetirməsi olmuşdur. Burada Seyid Şuşinski, Xan Şuşinski, Hüseynqulu Sarabski kimi sənətkarların sinfini bitirmiş xanəndələrin öz yaradıcılıq və müəllimlik fəaliyyətində onların ənənələrini davam etdirməsi muğam sənətinin inkişafında özünü göstərir.

Hazırda fəaliyyət göstərən bir çox xanəndələrin müəllimlik fəaliyyətini qeyd edə bilərik: Arif Babayev, Əlibaba Məmmədov, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov, Mənsum İbrahimov, Qəzənfər Abbasov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Aygün Bayramova, Nəzakət Teymurova və b. gənc nəslin yetişdirilməsində böyük əmək sərf edirlər.

Keçmiş dövrlərdə ayrı-ayrı ustad xanəndələrin ənənələrinin ötürülməsi, yeni nəslin yetişməsində mühüm əhəmiyyətə malik idisə, müasir dövrdə bu, əhatə dairəsini genişləndirmiş, təhsil sisteminə daxil olunmuş və müəyyən dərəcədə kütləvi xarakter almışdır. Hər halda, ustad-müəllim münasibəti muğam sənətində əsas prinsiplərdən biridir və muğamın ənənəvi ötürülməsini təmin edir.

Bütün bu ənənəvi cəhətlərlə yanaşı, xanəndəlik sənətində müşahidə olunan yeni cəhətlərdən biri opera artistliyidir ki, XX əsrin birinci yarısında xanəndəlik sənətinin bir sahəsi kimi formalaşmış, əsrin ikinci yarısında daha geniş vüsət almışdır. Lakin opera artistliyi xanəndə üçün seçilmiş bir sahədir, yəni heç də bütün xanəndələr operada çıxış etmirlər. Belə ki, bu da xanəndənin özünün artistlik istedadına malik olması və teatr sənətinə daxil olması arzusu ilə bağlıdır.

Bu sahədə bir çox xanəndələrin adları opera tarixinə yazılmışdır. XX əsrin ikinci yarısında opera səhnəsində çıxış edən xanəndələrdən Arif Babayev, Baba Mahmudoğlu, Canəli Əkbərov, Zeynəb Xanlarova, Rübabə Muradova, Nəzakət Məmmədova, Səkinə İsmayılova və başqalarının, halhazırda səhnədə olan xanəndələrdən Mənsum İbrahimov, Aygün Bayramova, Nəzakət Teymurova, Səbuhi İbayev, Təyyar Bayramov, İlkin Əhmədov və b. adlarını qeyd etmək olar.

Müasir dövrdə meydana gələn yeni cəhətlər əsasən xanəndələrin elmi-pedaqoji sahədəki fəaliyyəti ilə bağlıdır: xanəndələrin çalışdıqları ali məktəblərdə professor və dosent kimi elmi ad almaları, onların tədqiqatçılıqla məşğul olmaları, sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya üzərində işləmələri, kitablar, monoqrafiyalar, dərs vəsaitləri, metodik tövsiyələr, tədris proqramları, elmi məqalələr yazmaları qeyd olunmalıdır.

Bu baxımdan, professor elmi adına layiq görülmüş ilk xanəndə Arif Babayev olmuşdur, həmçinin, bir sıra xanəndələr – Canəli Əkbərov, Alim Qasımov, Səkinə İsmayılova, Mələkxanım Əyyubovavə b. professor elmi adı almışlar. Əlibaba Məmmədov və Ağaxan Abdullayev Azərbaycan Milli Konservatoriyasının fəxri professoru adına layiq görülmüşlər. Simarə İmanova sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür, bir çox xanəndələrin dərs vəsaitləri çap olunmuşdur.

Bundan əlavə, xanəndələrin ictimai fəaliyyəti ilə bağlı məqamları da qeyd etməliyik: Zeynəb Xanlarovanın millət vəkili olması diqqətəlayiqdir. Arif Babayevin Azərbaycan Milli Konservatoriyasında solo oxuma – xanəndəlik kafedrasının müdiri kimi, Canəli Əkbərovun Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində xanəndəlik kafedrasının müdiri kimi fəaliyyət göstərməsi bu qəbildəndir.

Daha bir cəhət xanəndələrin təşkilatçı və bədii rəhbər olaraq, xalq çalğı alətləri ansamblları yaratması ilə bağlıdır. Müəyyən illərdə İslam Rzayevin təşkilatçılığı və rəhbərliyi ilə instrumental ansamblın, Əlibaba Məmmədovun "Hümayun" xalq çalğı alətləri ansamblının fəaliyyətini qeyd etməliyik. İslam Rzayev, həmçinin, Muğam teatrının yaradılmasının təşəbbüskarı və bədii rəhbəri olmuşdur.

XX əsrin ikinci yarısından başlayaraq, xanəndəlik sənətinə gəlmiş, həmçinin, yaradıcılığının yüksəliş dövrü bu illərə təsadüf edən bir sıra xanəndələrin yaradıcılığının nəzərdən keçirilməsi müasir dövrdə xanəndəlik sənətinin səciyyələndirilməsinə imkan yaradır.

**2.2. "Xanəndəlik sənətinin ənənəvi tədrisi, ustad ənənələrinin rolu"** araşdırılır. Azərbaycanda muğam ifaçılığı sənətinin inkişafından danışarkən xanəndəliyin ənənəvi tədrisinə xüsusi diqqət yetirmək lazımdır. Məlumdur ki, Azərbaycanda xanəndəlik və instrumental muğam ifaçılığının tədrisi üç pillədə - ibtidai, orta və ali məktəb səviyyəsində aparılır. Xanəndəlik ixtisası üzrə ibtidai musiqi təhsili uşaq musiqi məktəblərinin

proqramlarına daxildir. Uşaq musiqi məktəblərində (7 illik təhsil sistemində) xanəndəlik təhsili 5 ildən ibarətdir.

Orta ixtisas təhsili sistemində xanəndəlik ixtisası üzrə kadr hazırlığı musiqi kolleclərində (əvvəlki musiqi texnikumları) 4 il müddətinə aparılır. Həmçinin 11 illik musiqi məktəblərinin, incəsənət gimnaziyalarının yuxarı siniflərində (8-11-ci siniflər) xanəndəlik (o cümlədən xalq çalğı alətləri və digər ixtisaslar) üzrə təhsil musiqi kolleclərinin 4 illik tədris proqramına yaxındır.

Ali məktəblərdə, o cümlədən, 2000-ci ilə qədər Bakı Musiqi Akademiyasında (əvvəlki Azərbaycan Dövlət Konservatoriyası), hal-hazırda Azərbaycan Milli Konservatoriyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında xanəndəlik ixtisasları üzrə kadrlar hazırlanır. Bu iş XX əsrin son onilliyində daha geniş vüsət almışdır. Bu təhsil ocaqlarında dərs deyən ustad xanəndələr və onların yetirmələri olan xanəndələr pedaqoji fəaliyyətlə, kadr hazırlığı ilə məşğul olurlar.

Xanəndəlik sənətinin tədrisində qədim dövrlərdə olduğu kimi, bu gün də ustadların ənənələrinin mənimsənilməsi böyük əhəmiyyətə malikdir. Hər bir gənc ifaçı müəllimin – ustadın rəhbərliyi altında formalaşır, sənətin sirlərini öyrənir, təkmilləşir. Bu ənənə bütün dövrlərdə mövcud olmuşdur. Muğam sənətində inkişafın əsasını da ustad-şagird zəminində ötürülmə təşkil edir. Bu cəhət müasir dövrdə üç (və ya dörd) pilləli təhsil sistemində də diqqəti cəlb edir. Belə ki, təhsilin təkmilləşdirilməsi, təhsil planlarının müasir dövrün tələblərinə uyğun tərtib olunmasına baxmayaraq, muğam sənətinin tədrisinin ilkin özəyi məhz fərdi qaydada, şifahi ənənələr əsasında ustad-şagird münasibətlərinin qurulması ilə bağlıdır. İxtisas fənnində bu ilkin şərt mütləq olaraq gözlənilir.

Muğamın mənimsənilməsinin ikinci şərti səs yazılarının dinlənilməsindən ibarətdir. Bu üsul XX əsrin əvvəllərindən başlayaraq, qrammofon vallarında xanəndələrin səsyazılarının həyata keçirilməsindən sonra meydana gəlmişdir. Əlbəttə ki, qrammofon vallarında xanəndələrin səs yazıları geniş surətdə təmsil olunmuşdur. Əsrin əvvəllərindən bu günə kimi olduqca böyük bir səsyazma irsi meydana gəlmişdir. Demək olar ki, bir əsrdən artıq dövr ərzində yaşayıb-yaratmış xanəndələrin yaradıcılıq irsi, ifaçılıq xüsusiyyətləri, o zamanın muğam ifaçılığı, xanəndələrin repertuarına daxil olan dəstgahlar, zərbi-muğamlar, təsniflər, rənglər, xalq mahnıları haqqında ən geniş bilgiləri səs yazılarının araşdırılması sayəsində əldə etmək olar.

Bu istiqamətdə daha bir səmərəli üsul not yazılarından istifadə məsələsidir. Məlumdur ki, XX əsrin 20-30-cu illərindən başlayaraq, sonrakı illər ərzində Azərbaycan xalq mahnı və təsniflərinin, xalq rəqslərinin, rənglərin, aşıq havalarının, muğamların not nəşrləri meydana gəlmişdir. Bunlar çox qiymətli materiallardır. Belə ki, həmin vaxtda oxunub nota yazılmış ifaçılıq variantlarını əks etdirir. Bütün bu materiallar elmi tədqiqatlarda istifadə olunsa da, xanəndəlik tədrisində diqqətdən kənarda qalır. Lakin muğamların, xalq mahnı və təsniflərinin ifaçılıq xüsusiyyətlərinin mənimsənilməsində, onların musiqi dilinin tədqiqində səsyazılarının və not yazılarının mühüm əhəmiyyəti vardır. Xanəndələrin tədris prosesində bütün bu vasitələrdən istifadə olunması vacibdir və tədrisi qüvvətləndirmək üçün səmərəli nəticələr verə bilər.

**Dissertasiyanın III fəsli "Müasir dövrdə muğam sənətinin inkişaf xüsusiyyətləri" adlanır və iki bölmədən ibarətdir.**

**3.1. "Ümummilli lider Heydər Əliyevin muğam ifaçılığı və xanəndəlik sənətinin inkişafında rolu"**nun öyrənilməsinə həsr olunmuşdur. Müasir dövrdə Azərbaycanda muğam sənətinin inkişafının geniş vüsət alması bu sənətə olan dövlət qayğısının nəticəsidir. Bunu birmənalı şəkildə qəbul edərək, deməliyik ki, mütəmadi həyata keçirilən geniş miqyaslı möhtəşəm tədbirlərdən tutmuş musiqi xadimlərinə göstərilən maddi dəstəyə kimi, dövlətin mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri kimi önə çıxır. Bunun da əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndərin muğam ifaçılarının musiqi mədəniyyətindəki rolunu dəyərləndirməsi, onların yaradıcılığını hərtərəfli xarakterizə etməsi bizim üçün çox önəmlidir və tədqiqatımıza istiqamət vermişdir, buna görə də biz ilk növbədə, Heydər Əliyevin nitqlərinə, çıxışlarına və imzaladığı sərəncamlara, teleqramlara əsaslanaraq, onun xanəndəlik sənəti ilə bağlı fikirlərinə diqqət yetirmək məqsədəuyğundur.

1969-cu ilin 14 iyul ayından etibarən respublikada siyasi rəhbərliyə başlamaqla Azərbaycanın tarixində keyfiyyətcə yeni dövrün təməlini qoyan Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətinin ilk illərindən respublikada elmin, təhsilin, mədəniyyət və incəsənətin də müasir zamana və tələblərə, milli maraqlara və ənənələrə, gələcək proqressiv tərəqqiyə uyğun hərtərəfli inkişafı üçün uğurlu dövlət siyasəti həyata keçirməyə başladı. Heydər Əliyevin 1969-1982-ci illərdəki fəaliyyətini əks etdirən bütün bu tarixi faktlar Azərbaycanın Dövlət müstəqilliyinə, mədəniyyət siyasətinin inkişaf etdirilməsinə zəmin yaratmışdır. 1993-cü ildən başlayaraq müstəqil Azər-

baycan Respublikasının Prezidenti Heydər Əliyevin həyata keçirdiyi düzgün və əsaslandırılmış daxili və xarici siyasət Azərbaycanda demokratik inkişaf yolu ilə sürətlə irəliləməsinə geniş istiqamət açmış, iqtisadiyyatın, mədəniyyətin dirçəlməsinə səbəb olmuşdur.

Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan mədəniyyətinin qayğısına qalmış, onun sayəsində Azərbaycan mədəniyyəti ümumdünya mədəni məkanında tanınmış, sevilmişdir. XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin vüsətli inkişafı, geniş miqyasda təbliği və böyük nailiyyətləri bilavasitə Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsi idi. Onun rəhbərlik etdiyi 70-80-ci illərdə, xüsusən sonrakı dövrdə mədəni və ədəbi irsimizə, təsviri sənətə, balet və teatra qayğı misilsiz dərəcədə artmışdı.

Heydər Əliyev milli-mədəni dəyər, milli sərvət kimi yüksək qiymətləndirdiyi muğamlara, xalq musiqisinə milli ruhda tərbiyənin, milli zəmində bədii-estetik tərbiyənin vacib amili kimi yanaşır, buna görə də onların qorunması və yaşaması üçün, istedadlı xanəndələrə hər cür dövlət qayğısı göstərilməsi üçün əlindən gələni əsirgəmirdi. O, musiqi irsimizin öyrənilməsinə və təbliğ olunmasına böyük əhəmiyyət verir, Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış etmək məsələsini daim diqqət mərkəzində saxlayırdı.

Azərbaycan dövləti mədəni irsin qorunub saxlanılması və təbliğ edilməsi, mədəniyyətin inkişafı üçün daha münasib şəraitin yaradılması, mədəniyyət və incəsənət nümayəndələrinə azad yaradıcılıq imkanlarının təmin edilməsi yolunda müntəzəm olaraq zəruri tədbirlər həyata keçirir. Ölkə Konstitusiyasında mədəniyyətlə bağlı müddəalar, tarix və mədəniyyət abidələri, muzeylər, arxiv və kitabxanalar, kinematoqrafiya, din və folklor kimi mədəni sərvətlər haqqında müvafiq qanunlar mədəniyyətə dövlət qayğısının əyani ifadəsidir.

Ümummilli liderimiz Heydər Əliyev dönə-dönə vurğulayırdı ki, hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Azərbaycan xalqının mədəniyyəti dünyanın ən qədim mədəniyyətlərindən sayılır. O, həmişə Azərbaycan mədəniyyətini, onun sənətkarlarını yüksək qiymətləndirmiş, bütövlükdə mədəniyyətimizin inkişafına mənəvi zəmin yaratmışdır.

Heydər Əliyevin incəsənət xadimlərinə ünvanladığı sərəncamların və təbrik teleqramlarının məzmunu çox böyük maraq doğurur. Belə ki, Ulu öndər hər bir sənətkarın olduqca dəqiq və əhatəli bir yaradıcılıq portretini yaratmağa nail olmuşdur. Ulu Öndər Heydər Əliyevin müasir dövrdə xanəndəlik sənətinin inkişaf etdirilməsinə istiqamətlənmiş fərmanları və

sərəncamlarında Azərbaycanın musiqi mədəniyyətində xanəndələrin mühüm rolunun dəyərləndirilməsi ilə, xanəndəlik sənətinin görkəmli nümayəndələrinin ifaçılıq, yaradıcılıq və pedaqoji sahələrdə fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Heydər Əliyev gənc istedadların, gənc ifaçıların sənətinə daim diqqət və qayğıkeşliklə yanaşmışdır. Onların yaradıcılıq fəaliyyətlərini inkişaf etdirməkdə əlindən gələn köməyi əsirgəməmişdir. Respublikanın bütün gənc istedadlarını himayəyə götürməyi özü üçün müqəddəs borc sayan Prezident gənc istedadlara qayğını xalqın gələcəyinə, XXI əsrin gənclərinə qayğı kimi qiymətləndirirdi.

Bütün bunlar müasir dövrdə xanəndəlik sənətinin inkişafına təkan verməklə, XX əsrin II yarısında və XXI əsrin əvvəllərində yeni inkişaf mərhələsini yaratmışdır.

**3.2. "Heydər Əliyev Fondunun muğam sənətinin inkişaf etdirilməsində rolu"** adlanır. Ulu Öndər Heydər Əliyevin musiqi mədəniyyətinə, muğam sənətinə qayğıkeş münasibəti öz davamını onun adını ləyaqətlə daşıyan Heydər Əliyev Fondunun fəaliyyətində tapmışdır. Heydər Əliyev Fondunun, başda Mehriban xanım Əliyeva olmaqla xalq musiqimizə, xüsusilə də, mənəvi sərvətimiz olan muğam sənətinə göstərdiyi qayğı xanəndələr və muğam ifaçıları üçün böyük stimuldur.

Heydər Əliyev Fondu tərəfindən "Muğam-İrs", "Muğam-Dəstgah", "Muğam Ensiklopediyası", "Muğam-İnternet", "Muğam-Antologiya", "Muğam dünyası", "Muğam Mərkəzi" kimi möhtəşəm layihələr həyata keçirilir. Bu layihələri bir neçə istiqamətdə xarakterizə etmək olar: muğam ənənələrinin yaşadılması - Azərbaycanda və xarici ölkələrdə muğam ifaçılarının konsertləri, muğam irsinin zənginləşdirilməsi - muğamların səsyazılarından ibarət CD-DVD albomların buraxılması, muğamın tədqiqi - qədim risalələrin və elmi nəşrlərin çap olunması, elmi simpoziumların keçirilməsi, muğamın təbliği – beynəlxalq festivalların keçirilməsi, muğamın gənc nəslə ötürülməsi – muğam müsabiqələrinin təşkili. Əlbəttə ki, bütün bu istiqamətlər bir-birilə sıx bağlıdır və biri-digərini tamamlayır. Muğamla bağlı bu cür möhtəşəm tədbirin keçirilməsi muğam sənətinin tarixində yeni bir mərhələnin başlanmasına rəvac verdi.

Azərbaycan muğamlarının qorunub gələcək nəsillərə çatdırılması məsələsi Fondun prioritet istiqamətlərindən biridir. Azərbaycan muğamını dünya miqyasında təbliğ etməklə, həmçinin muğam sənətini yaşadan musiqiçi və müğənnilərə qayğı göstərmək Fondun qarşısında duran mühüm

məsələlərdəndir. Muğam ifaçılığı sənətinin inkişaf etdirilməsi ilə yanaşı, muğam irsinin - muğam ifaçılarının səsyazılarının qorunması və toplanması ilə bağlı layihələri də böyük əhəmiyyətə malikdir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi muğam layihələri sırasında muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə "Muğam televiziya müsabiqəsi"nin keçirilməsi diqqətəlayiqdir və geniş bir dinləyici – tamaşaçı auditoriyasını əhatə edir. XXI əsrdə xanəndəlik sənətinin davam etdirilməsini təmin edən gənc nəslin yetişməsində Televiziya muğam müsabiqələrinin rolu böyükdür və 2005-ci ildən başlayaraq keçirilən bu kimi müsabiqələr Heydər Əliyev Fondunun ən uğurlu layihələrindəndir.

Bütün bunlar Azərbaycan muğamının qorunub yaşadılımasına, gələcək nəsillərə ötürülməsinə, dünyada tanıdılmasına xidmət etməklə, müasir dövrdə xanəndəlik sənətinin inkişafında mühüm əhəmiyyətə malikdir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir. Müasir dövrdə bütövlükdə xanəndəlik sənətinin, həmçinin, ayrı-ayrı Azərbaycan xanəndələrinin yaradıcılığının öyrənilməsi musiqişünaslıqda həlli vacib məsələlərdən biri kimi diqqəti cəlb edir.

XX əsrdən başlayaraq, xüsusilə XX əsrin II yarısından və XXI əsrin əvvəllərində xanəndələrin fəaliyyət sahəsi çox genişlənmişdir. Xanəndələr həm muğam ifaçısı – ansamblın solisti, həm operanın solisti, həm də müəllim kimi tanınırlar, muğam sənətinin və bəstəkar yaradıcılığının inkişafında mühüm rol oynayırlar.

Xanəndəlik ustad ənənələrinə əsaslanan bir sənətdir. Xanəndələrin ustadlarından muğamın sirlərini öyrənərək, onların ənənələrini davam və inkişaf etdirmələri muğam sənətinin yaşadılmasına və inkişafına təkan verir. Bu baxımdan Azərbaycan musiqi mədəniyyətində bir neçə bölgədə muğam ifaçılığı məktəblərinin formalaşması, bu məktəblərin ənənələrini dərindən mənimsəyən xanəndələrin yetişməsi bütövlükdə Azərbaycan muğamının inkişafında mühüm amillərdir. Xanəndələr özündən əvvəlki sənətkarların nailiyyətlərinə əsaslanaraq, onları yeni dövrdə yüksək inkişaf müstəvisinə çıxarmış, özünəməxsus xüsusiyyətlərlə zənginləşdirmişdir. Buna görə də müasir dövrdə Azərbaycan xanəndələrinin yaradıcılığı, ifaçılıq sənəti öz orijinallığı ilə seçilir.

Müasir dövrdə xanəndəlik sənətinin inkişafı dövlətin qayğısı, Heydər Əliyev Fondunun himayəsi altında gedir. Bunun da əsası Ümumiilli lider

Heydər Əliyev tərəfindən qoyulmuş və dövlətin mədəniyyət siyasətinin bir hissəsinə çevrilmişdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur**:


1. Azərbaycan xalq mahnıları haqqında. // "ADMİU Elmi əsərlər". № 7-8. Bakı, 2009. s. 182-186.
2. Azərbaycan xalq mahnılarının lad-məqam xüsusiyyətləri. // "Mədəniyyət dünyası". XVIII buraxılış. Bakı, 2009. s. 179-183.
3. Xanəndə sənətkar Əlibaba Məmmədovun yaradıcılığı. // "Mədəniyyət dünyası". XX buraxılış. Bakı, 2010. s. 153-159.
4. Arif Babayevin yaradıcılığında xalq mahnıları və təsniflərin rolu. // "ADMİU Elmi əsərlər". № 11. Bakı, 2011. s. 230-237.
5. Xanəndə Mütəllim Mütəllimovun yaradıcılığı. // "Mədəniyyət dünyası". XXII buraxılış. Bakı, 2011. s. 210-214.
6. XX əsrin ikinci yarısında qadın xanəndələrin yaradıcılığı (G.Həsənova, R.Muradova, S.Qədimova). // "Konservatoriya" elmi nəşr. № 4 (30). Bakı, 2015. s. 62-67.
7. Xanəndə Yaqub Məmmədovun yaradıcılığı. / "Mədəniyyət: problemlər və perspektivlər". Doktorantların və gənc tədqiqatçıların VI beynəlxalq elmi konfransının materialları. Bakı, 2012. s. 74.
8. XIX əsrin II yarısında Azərbaycan muğamı mədəniyyətlərarası dialoqda ("Şərq konsertləri" nümunəsində). / "Qloballaşma şəraitində kulturuloji innovasiyalar və sosial-mədəni inkişaf". Beynəlxalq konfrans materialları. Bakı, "Təknur", 2012. s. 337-340.
9. Azərbaycan milli musiqisinin inkişafında xanəndəlik sənətinin rolu. / "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu". Beynəlxalq Elmi Konfransın materialları. Bakı, 2012. s. 76-77.
10. Azərbaycanın səhnədən uzaq operaları, problemləri və səbəbləri. / "Mədəniyyət: problemlər və perspektivlər". Doktorantların və gənc tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransının materialları. Bakı, 2013. s. 70-71.
11. Müasir dövrdə Azərbaycanda xanəndəlik sənətinin inkişaf xüsusiyyətləri. / IX İnternational Turkic Culture, Art and Protection of Cultural Heritage Symposium/Art Activit. İnterecci di Culture. 07-11. September 2015, Verona-İtaly.
12. Azərbaycanda xanəndəlik sənətinin inkişaf xüsusiyyətləri. // "Rast" muzikoloji dergisi. Tokat – Türkiye, 2016.

**Ахсан Аллахверди оглы Ахмедов**

**«Развитие искусства ханенде в современный период (1960-2010 г.г.)»**

## РЕЗЮМЕ

Азербайджанский мугам в начале XXI века внесено в список ЮНЕСКО «Шедевры устного и нематериального культурного наследия» и это ознаменовало начало новой эпохи в развитии мугама. В современный период в Азербайджане искусство мугама является приоритетным и на государственном уровне уделяется большое внимание к этому виду музыкального искусства, осуществляются проекты в мировом масштабе, как Международные мугамные фестивали, симпозиумы и конкурсы. Искусство ханенде, основанно на традициях пения древних мастеров. Обучаясь секретам исполнительского мастерства мугама, ханенде хранят и развивают традиции азербайджанского мугама и обогащают своими оригинальными интерпретациями. В то же время, ханенде - мастер, педагог, который передает свои знания и традиции будущему поколению, концертный и оперный исполнитель, выступающий на сцене, исполняющий основные партии во многих операх и вокально-инструментальных произведениях Азербайджанских композиторов.

Диссертация состоит из введения, 3-х глав, 6-ти разделов заключения и библиографии. I глава диссертации – «Становление и этапы развития профессионального мугамного исполнительства в Азербайджане» состоит из 2-х глав: 1.1. «Историчесикая периодизация искусства ханенде - мугаматистов и особенности развития до XX века»; 1.2. «Развитие мугамного исполнительства в XX и начало XXI в.в.».

II глава – «Основные области искусства ханенде в современный период» состоит из 2-х глав: 2.1. «Характеристика исполнительского искусства ханенде. Видные мастера мугаматисты»; 2.2 «Традиционное обучение искусству ханенде, роль традиций мастеров».

III глава - «Особенности развития искусства мугама в современный период» состоит из 2-х глав: 3.1. «Роль Общенационального лидера Гейдара Алиева в развитии искусства ханенде и мугамного исполнительства»; 3.2 «Роль Фонда Гейдара Алиева в развитии искусства мугама». В заключении даются выводы и обобщения проведенного исследования.

**Ahsan Allahverdi Ahmedov**

**"The development of art singers - khanende in Azerbaijani modern times (1960-2010)"**

## SUMMARY

At the beginning of the XXI century Azerbaijani mugam entered into the UNESCO list of "Masterpieces of Oral and Intangible Cultural Heritage" and it marked the beginning of a new era in the development of mugham. In the modern period the art of mugham in Azerbaijan is a priority at the state level and is payed more attention to this kind of musical art, it is carried out projects worldwide as International Mugham festivals, symposia and competitions, where singers play this essential role. The art singers, based on tradition of singing the ancient masters. Learning the secrets of mastery mugham singers keep and develop the traditions of Azerbaijani mugam and enrich their original interpretations. At the same time, the singers - master teacher who conveys his knowledge and tradition to future generations, a concert and opera singer, performing on stage, performing major parties in many operas and vocal and instrumental works by Azerbaijani composers.

The thesis consists of an introduction, 3 chapters , conclusion and bibliography . The first chapter of the thesis - "Formation and stages of the development of professional mugham performance in Azerbaijan" consists of 2 chapters: 1.1. "Historical periodization of art of khanende - mugamatists and features of development up to the twentieth century"; 1.2. "Development of mugham performance in the twentieth and beginning of the 21st century".

II chapter - "The main areas of art of the khanende in the modern period" consists of 2 chapters: 2.1. "Characteristics of the performing arts of khanende. Prominent masters of mughamists "; 2.2 "Traditional training in the art of khanende, the role of traditions of masters".

Chapter III - "Features of the development of mugham art in the modern period" consists of 2 chapters: 3.1. "The role of the National Leader Heydar Aliyev in the development of art of khanende and mugam performance"; 3.2 "The role of the Heydar Aliyev Foundation in the development of mugham art". In conclusion, conclusions and generalizations of the research are given.

Çapa imzalanıb: 15.07.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АХСАН АЛЛАХВЕРДИ оглы АХМЕДОВ**

# РАЗВИТИЕ ИСКУССТВА ХАНЕНДЕ В СОВРЕМЕННЫЙ ПЕРИОД (1960-2010 г.г.)

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**